



# 2019-cu il üzrə Azərbaycan Respublikasının makro-iqtisadi inkişafına dair

Ölkə Prezidentinin rəhbərliyi ilə son illər ərzində iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı istiqamətində çoxşaxəli iqtisadi islahatlar həyata keçirilmiş, o cümlədən regionların sosial-iqtisadi inkişafının təmin edilməsi, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft ixracının artırılması üzrə kompleks tədbirlər görülmüş, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun stimullaşdırılması, o cümlədən özəl sektora təşviq mexanizmlərinin tətbiqi, aqrar sektora dövlət qayğısının artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi məsələləri diqqət mərkəzində saxlanılmışdır.

İqtisadiyyatın dayanıqlı inkişafının təmin olunması, əhalinin sosial rifahının yüksəldilməsi, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncam və Fərmanları ilə təsdiq edilmiş “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf konsepsiyası və “milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri”ndə müəyyən olunmuş tədbirlərin icrasının uğurla davam etdirilməsi, həmçinin müntəzəm və sistemli islahatların və məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində iqtisadi artıma nail olumuş, qeyri-neft sahələrinin inkişafı sürətlənmişdir.

Görülmüş işlərin nəticəsində 2019-cu ildə ÜDM real ifadədə 2.2% artaraq cari qiymətlərlə 81.7 milyard manat olmuşdur. Adambaşına düşən ÜDM-in həcmi 8247.0 manat təşkil etmişdir.



**Qrafik 1. Əvvəlki ilin müvafiq dövrünə nisbətən neft və qeyri-neft sektorunun real artım tempi, %**

2019-cu ildə ötən ilin müvafiq dövrünə nisbətən ÜDM-in qeyri-neft sektoru real ifadədə 3.5% artmışdır. Həmin dövr ərzində qeyri-neft sənayesi 14.5%, informasiya və rabitə sahəsi 15.9%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsi 6.4%, ticarət sahəsi 3.6%, kənd təsərrüfatı 7.3%, nəqliyyat və anbar təsərrüfatı 1.0% artmışdır.

Neft-qaz sektoru üzrə isə 2019-cu ildə 2018-ci ilin müvafiq dövrünə nisbətən 0.4% artım qeydə alınmışdır. Bu sektorun ÜDM-də xüsusi çəkisi 38.3% olmuşdur.

2019-cu ildə ölkədə əsas kapitala yönəldilmiş ümumi investisiyaların 68.1%-i qeyri-neft bölməsinin, 31.9%-i isə neft bölməsinin inkişafında istifadə edilmişdir.

Qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən islahatlar Azərbaycan iqtisadiyyatına müsbət təsir göstərmiş, qeyri-neft ixrac gəlirləri artmışdır.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2019-cu ilin yanvar-noyabr aylarında xarici ticarət dövriyyəsi 30040.5 milyon ABŞ dolları, o cümlədən ixrac 17655.8 milyon ABŞ dolları, idxal isə 12384.7 milyon ABŞ dolları olmuş və 5271.1 milyon ABŞ dolları həcmində müsbət ticarət saldosu yaranmışdır. Bu dövr ərzində qeyri-neft ixracı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 16.3% artmışdır.

2019-cu ilin 30 noyabr tarixinə iqtisadiyyata maliyyə-kredit təşkilatlarının təqdim etdikləri kreditlərin həcmi 2018-ci ilin müvafiq dövrünə nisbətən 20.3% artaraq 15116,4 milyon manat təşkil etmişdir. 2019-cu ilin 30 noyabr tarixinə milli valyutada verilən kreditlərin həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 24.2%, xarici valyutada verilən kreditlərin həcmi isə 13.8% artmışdır.




**Qrafik 2. İqtisadiyyata kredit qoyuluşları, dövrün sonuna mln. AZN**





2019-cu ilin 30 noyabr tarixinə əhalinin banklardakı əmanətləri 2018-ci ilin müvafiq dövrünə nisbətən 7.5% artaraq, 8.7 milyard manat təşkil etmişdir.

**Qrafik 3. Əhalinin əmanətləri, dövrün sonuna, mln. AZN**




2019-cu ildə əhaliyə istehlak bazarında satılmış məhsulların və göstərilmiş xidmətlərin ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.9% artaraq 50654.2 milyon manata bərabər olmuşdur. Pərakəndə ticarət dövriyyəsi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3.6%, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi isə 3.1% artmışdır.

2019-cu ildə əhalinin nominal gəlirləri 7.4% artaraq 57.0 milyard manat təşkil etmiş, əhalinin hər nəfərinə düşən nominal gəlirləri isə 6.5% artaraq 5758.6 manata çatmışdır.

2019-cu ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqları 2018-ci ilin eyni dövrü ilə müqayisədə 15.4% artaraq 623.1 manat təşkil etmişdir.